# Yeni sərəncam pensiyaçıların rifahının yaxşılaşdırılması istiqamətində mühüm addımdır

Prezident İlham Əliyevin 2 fevral 2021-ci il tarixli sərəncamı ilə təsdiq edilən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də də bu məsələyə xüsusi önəm verilib. Sənəddə sosial təminat sisteminin daha səmərəli və ədalətli olması hesabına aşağıgəlirli və yoxsulluğa həssas təbəqənin, əlilliyi olan şəxslərin, o cümlədən, sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqların sosial müdafiəsi və sosial təminatının gücləndirilməsi qarşıya mühüm vəzifə kimi qoyulub. Bu məqsədlə, ölkədə pensiya, müavinət, təqaüd və digər sosial ödənişlərin minimum məbləğlərinin layiqli səviyyəsinə nail olunması nəzərdə tutulub.

Prezident İlham Əliyev pensiyaçıların sosial müdafiəsini gücləndirmək məqsədilə "Əmək pensiyalarının indeksləşdirilməsi haqqında" 5 fevral 2021-ci il tarixli sərəncamı da bu baxımdan böyük əhəmiyyətə malikdir.

Sərəncama əsasən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə 2021-ci il 1 yanvar tarixinə 2020-ci il üzrə Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin müəyyən etdiyi orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq 2021-ci il 1 yanvar tarixinədək təyin edilmiş bütün növ əmək pensiyalarının sığorta hissəsinin və istehlak qiymətləri indeksinin illik səviyyəsinə uyğun olaraq fərdi uçot sistemində fərdi hesabların sığorta hissəsində 2021-ci il 1 yanvar tarixinədək qeydə alınmış pensiya kapitalı məbləğlərinin indeksləşdirilməsini həyata keçirmək tapşırılıb. Eyni zamanda, sərəncamdan irəli gələn məsələlərin həlli üçün Nazirlər Kabinetinə də tapşırıq verilib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən sərəncamla bağlı yayılan məlumatda bildirilir ki, Prezident İlham Əliyevin imzaladığı bu mühüm sənəd ölkədə sosial müdafiə tədbirlərinin gücləndirilməsi, pensiyaçıların rifahının yaxşılaşdırılması istiqamətində növbəti addımdır.

Məlumatda, həmçinin 2020-ci il üzrə orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun şəkildə pensiyaların indeksləşdirilərək 11,4 faiz artırıldığı bildirilir.

Prezident İlham Əliyevin uğurlu sosial siyasəti vətəndaş rifahının təminatı istiqamətində ardıcıl addımların atılmasını təmin edir. Ötən ildə də pensiya, Prezidentin təqaüdü və müavinət, ünvanlı sosial yardım üzrə ödənişlərə əvvəlki ilə nisbətən 20 faiz və ya 1 milyard manat çox olmaqla 5 milyard 743 milyon manat vəsait yönəldilib. Minimum və orta pensiyanın alıcılıq qabiliyyəti indeksinə görə Azərbaycan MDB məkanında liderliyini qoruyub saxlayıb.

Dövlət başçısının müvafiq fərmanları ilə sosial ödənişlərdə artım bu ilin əvvəlindən davam etdirilib. Prezidentin təqaüdlərinin məbləği şəhid ailələri üçün 66,7 faiz, Azərbaycanın Milli Qəhrəmanı üçün 20 faiz, İkinci Dünya müharibəsi iştirakçıları üçün 100 faiz, müharibə və 20 Yanvar əlilləri, müharibə əlillərinə bərabər tutulanlar üçün 50 faizdən çox artırılıb, Vətən Müharibəsi Qəhrəmanları üçün Prezidentin aylıq təqaüdü (2000 manat) təsis olunub.

Pensiyaların növbəti artımı ümumilikdə 1 milyon 140 min pensiyaçını və ya pensiyaçıların 93 faizini əhatə edir. Digər pensiyaçılar isə xüsusi şərtlər əsasında pensiya təyin olunmuş şəxslərdir. Artım 2021-ci ilin 1 yanvar tarixindən tətbiq olunacaq və yanvar ayının artımı fevral ayının pensiyası ilə birgə veriləcək. Pensiyaların indeksasiya edilərək artırılması üçün il ərzində əlavə olaraq 441 milyon manat yönəldiləcək.

Dövlət başçısının yeni sərəncamı ilə fərdi hesabların sığorta hissəsindəki pensiya kapitalı da istehlak qiymətləri indeksinin 2020-ci il üzrə illik səviyyəsinə uyğun səviyyədə indeksləşdirilərək yanvarın 1-dən 2,8 faiz artırılır. Bu da əmək müqaviləsi ilə çalışaraq sosial sığorta sistemində iştirak edən şəxslərin mənafeyinə xidmət edir və onların fərdi hesablarındakı pensiya kapitalının təkcə hər ay əməkhaqlarından sosial sığorta ayırmaları nəticəsində deyil, həmçinin hər il dövlət tərəfindən indeksləşdirilərək artırıldığını da göstərir.

Yeri gəlmişkən, burada bir məsələni də xatırlatmaq istərdik. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elmi dərəcəsi olan pensiyaçılara müraciətində bildirilir ki, əmək kitabçasında müvafiq qeydiyyat aparılan əsas iş yeri üzrə elmi müəssisə və təşkilatlarda, təhsil müəssisələrində azı 25 il çalışan, elmi dərəcəsi olan, işləməyən, əmək pensiyası hüququ yaranan şəxslərə Azərbaycan Prezidentinin 30 dekabr 2020-ci il tarixli fərmanına əsasən, pensiya əlavələrinin əvəzinə eyni məbləğdə Prezidentin aylıq təqaüdü təsis edilib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumata görə, təqaüdün təyinatı nazirlik tərəfindən proaktiv qaydada (vətəndaşın müraciəti olmadan) həyata keçirilir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin başqa bir məlumatında isə vurğulanır ki, postmüharibə dövrü üzrə sosial dəstək tədbirlərindən biri də Vətən müharibəsi şəhidlərinin ailələrinə sosial ödənişlərin təyin olunmasıdır.

Nazirliyin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondu (DSMF) tərəfindən indiyədək artıq 2837 şəhidin 7 mindən çox ailə üzvünə Prezidentin aylıq təqaüdü, pensiya və müavinət təyin edilib.

Müharibədən sonra şəhid ailələrinin üzvlərinin sosial təminat hüquqlarının reallaşdırılması işlərinin operativ təşkili üçün DSMF-də xüsusi işçi qrup yaradılıb, əməkdaşlar səfərbər edilib. Şəhid ailələri üzvlərinin müraciəti olmadan və zəruri sənədlər adı çəkilən fond tərəfindən aidiyyəti qurumlardan alınaraq toplanılmaqla ödənişlərin elektron qaydada, proaktiv şəkildə təyinatı həyata keçirilib.



***Son bir il ərzində COVID-19 pandemiyası dünya ölkələrinin, eyni zamanda, Azərbaycanın iqtisadiyyatına mənfi təsir göstərib. Hazırda ayrı-ayrı dövlətlərdə sosial-iqtisadi dayanıqlılıq və səmərəlilik baxımından fərqli mənzərə müşahidə edilir. Respublikamızda isə insanların sosial ödənişləri vaxtlı-vaxtında verilir, hətta vətəndaşlara, sahibkarlara dövlət yardımı da göstərilir. Bir sözlə, bu gün dövlət siyasətində prioritet istiqamətlərdən biri olan insanların sağlamlığının və normal yaşayışının təmin edilməsi diqqət mərkəzində saxlanılır. Çünki dövlətimizin siyasətinin mərkəzində insan amili dayanır və Prezident İlham Əliyevin də məqsədi insanların sağlamlığının qorunması ilə yanaşı, ölkəmizin iqtisadi dayanıqlılığının təmin edilməsi fonunda sosial müdafiə tədbirlərini həyata keçirməklə əhalinin sosial rifah halını daha da yaxşılaşdırmaqdır.***

*"Xalq qəzeti"*

Xalq qəzeti 2021.- 7 fevral.- S.3.